***Sovet dövrü Azərbaycan ədəbiyyatı***

# Balaş Azəroğlunun lirikasında Azərbaycançılıq

**Hicran Nəsibova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: hijran.nasibova@gmail.com

**Annotasiya.** Məqalədə Balaş Azəroğlunun şeirlərində onun azərbaycançılığı araşdırılır. Şairin vətəndaşlıq mövqeyini, xalqına, dilinə, vətəninə sədaqətini ifadə edən lirik nümunələr təhlil olunur. Göstərilir ki, onun yazdıqları Azərbaycanın tarixi, coğrafiyası, milli mənliyi, xalqının insanlıq tarixində mövqeyini əks etdirir. Balaş Azəroğlunun şeirlərinin çoxu xalqının azadlığı, gələcəyi naminə mücadiləyə çağırışdır. Cənubi Azərbaycanda fars rejiminin Azəri türklərinin dilinə qoyduğu qadağalara, təhqirlərə baxmayaraq şair ana dilini müqəddəs saymışdır. Onun şeirlərinin əsasında Azərbaycanın azad və bütöv gələcəyinə inam durur. Şair "Xətai qılıncıyla neçə top zəncirini qıra bilən oğul gərəkdir vətənə" – deyir. Təhlillər göstərir ki, Balaş Azəroğlu Təbrizin obrazında simvollaşdırdığı türk oğullarının kimliyinə güvənir. Şairin azərbaycançılıq ideologiyasının əsasında da vətənin bütövlüyü, azadlığı uğrunda mücadilədə bu mükəmməl kimliyin sarsılmaz iradəsi dayanır.
**Açar sözlər**: Balaş Azəroğlu, azərbaycançılıq, vətən, xalq, azadlıq, inam

**Məqalə tarixçəsi:** göndərilib – 09.09.2022; qəbul edilib – 29.09.2022

# Azerbaijanism in Balash Azeroglu's lyrics

**Hijran Nasibova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
Email: hijran.nasibova@gmail.com

**Abstract.** In the article Azerbaijanism is found out in his poems. The lyric samples are explained here, which shows the poet's citizenship interest, his loyalty for the people, language and country. It is shown that his poems indicate perfect Azerbaijani history, geography, national identity and his people's stance in the human's history. Most of his poems are the calling of people for struggle to the future and freedom. Although the Fars put ban against Azeri Turkish in South Azerbaijan, he considered his native language sacred. In the base of his poems there is belief for the perfect future and free Azerbaijan. The poet says: "Our country needs a son who can break the chain with the Khatai's sword". The explanations show that Balash Azeroglu believes the Turkish sons, whom he has symbolized in the character of Tabriz. In the base of his Azerbaijanism ideology stands the unity of the country, the dignity of the perfect character and bighting for freedom.
**Keywords:** Balash Azeroglu, Azerbaijanism, motherland, nation, freedom, belief

**Article history:** received – 09.09.2022; accepted − 29.09.2022

## Giriş / *Introduction*

Xalq şairi Balaş Azəroğlu yarım əsrə bərabər yaradıcılığı ilə Şimallı-Cənublu bütöv Azərbaycan poeziyası tarixində möhtərəm bir mövqe sahibidir. Gənclik illərində Ərdəbildə milli-azadlıq hərəkatının iştirakçısı kimi fəaliyyəti, şeirlərində əks olunan məfkurəsi ilə, hətta təxəllüsünün ifadə etdiyi dəqiq ünvanla Balaş Azəroğlu azərbaycançılığın mükəmməl simvollarındandır. Onun yazdıqları Azərbaycanın tarixi, coğrafiyası, milli mənliyi, müqəddəs dili, millətinin insanlıq tarixində mövqeyi və kimliyini əks etdirən, bu xalqın azadlığı, xoş gələcəyi naminə mücadiləyə çağırışdır.

## Əsas hissə / *Main Part*

Balaş Azəroğlu şeir-sənət aləminə gəlişinin məramını hələ 1937-ci ildə yazdığı “Addımlar” adlı şeirində belə ifadə etmişdi:

*...Nəğmə dəftərimin, söz dəftərimin*
*Adını “Vətən”lə açmaq istərəm.*
*Mənim arzum budur, bir oğul kimi*
*Kaş bu çətinliyə dözə biləydim.*
*Vətənə sevgimi, elə sevgimi*
*Könül sözlərimlə yaza biləydim.* [3, s.7]

Bu şeirdəki “çətinliyə dözə biləydim”, “könül sözlərimlə yaza biləydim” ifadələri bir gənc şair-fədainin yaşadığı tarixi dönəmin çətinlikləri içində qarşılaşacağı hər cür sınaqları gözə aldığı anlamını ifadə edir. Bu tarix o tarix idi ki, Cənubda milli-ictimai fikrin formalaşmasında, milli oyanışın vüsət almasında rolu olan mücahidlər təqibə, Şimalda isə milli ruhu sözlə ifadə olunan Azərbaycan türkünün sözü, ədəbiyyatı repressiyaya məruz qalırdı. Bu tayda Rus, o tayda Fars imperiyasının qadağaları, məhdudiyyətləri, tənqid və təhdidlərinə baxmayaraq vətənpərvərlik, xalqa, torpağa, mənliyinə, dilinə sadiqlik, vətənin azadlığına, gözəl gələcəyinə inam bütün qələm sahibləri kimi Balaş Azəroğlunun da poeziyasının əsas mövzusu idi. Azərbaycanın azad və bütöv sabahına gedən yolda dönməz bir məfkurə şairin poeziyasının – yaradıcılığının və həyatının mənasını əsaslandırırdı.

Vahid Azərbaycan uğrunda mücadiləsləri (Stalinin xəyanətləri səbəbindən) məğlubiyyətlə nəticələnsə də, Vətənin bütövlüyü Azərbaycan türklərinin məfkurəsində həmişəlik müqəddəs bir amal olaraq qaldı, Balaş Azəroğlu tarixin o sınaqlarında milyonlarla mücahidlərdən biri kimi qələbənin “bir addımlığı”nı yaşadı və bu fəxarət hissini həyatı boyu yaşatdı, mütləq bir gün xalqın zəfər çalacağına inamını itirmədi:

*Atamın səngəri məzarı oldu,*
*Üstünə bir qırıq kərpic qoyuldu.*
*Dostları süngüylə qazdı: “Mücahid”.*
*Mənim də “Fədai” qalacaq adım.*
*Sabahkı döyüşdə olmasam şahid*
*Başqa bir ad ilə yenə övladım*
*O gün vuruşacaq...*
*Bil, bu zülmətdən*
*Qurtaracaq səni, vətən, ey vətən.* [3, s.21]

*(“Vətən məhəbbəti”)*

Şairin “Fədailər marşı”, “Təbrizin baharı”, “Azərbaycan”, “Aşıq Hüseynə cavab” və s. şeirlərində vətən həsrəti ilə bərabər, bütöv Azərbaycan arzuları və bu yolda mübariz bir xalqın istəyi, amalı öz əksini tapmışdır:

*Biz odlardan yaranmışıq, anamızdır Azərbaycan*
*Qoymarıq ki, əl uzatsın bu torpağa qarı düşmən.*
*Bu ellərin hər daşında bir igiddən nişan vardır.*
*Qəhrəmanlar böyütmüşdür qucağında ana torpaq,*
*Ey qardaşım möhkəm saxla, Səttarxandan yadigardır*
*Çiynindəki odlu tüfəng, əlindəki qızıl bayraq.* [6, s.174]

*("Fədailər marşı")*

Vətən – Ana – torpaq türkün ali eşqi, ali amalı, həyatının mənası Balaş Azəroğlu poeziyasının əsas göstəricisi – ünvanıdır. Ömrünün mənasını Vətənin azadlığı yolunda ölməkdə görən və bu şərəfli ölümü ilə müqəddəs borcunu yerinə yetirmiş olacağına fəxarətlə inanan bu fədai şair (və onun kimiləri) XXI əsrin qəhrəmanlıq tarixini yazan – 44 gündə Qarabağı erməni faşizmindən azad edən vətənpərvər, igid varislərin əcdadları idi. Türkün torpaq, vətən, millət sevgisinin haradan gəldiyini və bu ənənəviliyin tarixinin də sübutu dünyaya bəlli oldu və bunun əbədi olacağını dünya da, düşmənlər də yaxşı bildilər: "Onlar bilir bu ellərin ürəyindəkin, Onlar bilir azərilər dönməz heç zaman..." çünki "Təbriz oğlun qorxutmadı nə sürgün, nə dar". Bu qürurla dünyaya meydan oxuyan şair "Təbrizin baharı" şeirində Təbriz həsrətli vətən oğullarının xəyalları, istəkləri ilə bərabər, onların ümidlərini, inamlarını da ifadə etmişdir.

"Azərbaycan" adlı şeirində Balaş Azəroğlu vətənin tarixindən, qəhrəmanlarından, dahilərindən fəxarətlə söz açır, keçmişini vərəqləyir, xalqın həyat tərzindən, o taylı, bu taylı güzəranından danışır, taleyin bu xalqla rastlaşdırdığı böyük dərdi kədərlə qələmə alır:

*Kəndli öküzünü qatıb önünə*
*Keçib bu sahildə sürdü torpağı.*
*Axşam əyri xışı açaraq yenə*
*Qayıtdı evinə o, azan çağı.*
*Onun ürəyində sonsuz arzular*
*Tər töküb işlədi qışı, baharı.*
*O hardan bilirdi bu axan sular*
*Kəsəcək minillik açıq yolları...* [6, s.179]

Vətənindən, torpağından doğmalarından məhrum olmaq bu qürurlu, məhəbbət dolu, elinə, dağına-düzünə bağlı şair xalqın taleyinə yazılmış "sizif əzabı"na çevrildi. Hələ də sonu görünməyən bu böyük ağrının "Araz", "Təbriz" adlı həsrət, yanğı, acı simvolu bu xalqın həm yazılı, həm şifahi dilinin ruhuna hopmuş oldu. Bütün ömrü boyu Balaş Azəroğlu şeirinin də ruhunda nidaya dönən bu simvollar Azərbaycan adlı qədim bir diyarın sinə dağı, fəryadı, haqq səsi oldu:

*Vətən torpağını ikiyə bölən*
*Tək Araz olsaydı mənim nə dərdim...*
*İnan ki, Arazın tutub belindən*
*Mən onun özünü iki bölərdim!*
*Kim dözər, kim dözər göstərin mənə,*
*Onun ürəyini ikiyə bölsən?!*
*Mən dözə bilmirəm bu möhnətinə*
*Sən mənim qəlbimsən, inan ey Vətən!* [6, s.179]

1945-ci ildəki milli-azadlıq hərəkatı nəticəsində Cənubda qurulan milli hökumətin ləğvi arzuları, bütün mücadilələri puç olan fədailəri daha böyük faciələrlə üzləşdirdi. 1946-cı illərdən Şimali Azərbaycana üz tutub ömürlük həsrətdə yaşamalı olan qələm sahibləri heç vaxt inamlarını itirmədilər. Tarixi təcrübə, xalqın azadlıq istəyi, əzmi onlara həmişə ümid vermişdir. Əli qələm tutanların yazısında, dili söz tutanların sözündə mütləq bu inam vardı və indi də var.

Azəri xalqının ruhuna köklənmiş həm Cənublu, həm Şimallı şairlərin həsrət ağrıları "Cənub dərdi" səlnaməsini yaradırdı. Azərbaycanı bütöv görmək istəyən, cənublu soydaşlarımızın başına gələnləri öz ağrıları ilə yaşayan şairlərimizin demək olar ki, hamısı bu mövzuda var səslərini ucaldır, bu xalqın həsrət dağını onlarla birgə içdən çəkirdilər. Həyatda ən böyük amalın vətənin bütövlüyü, azadlığı bilən qələm sahiblərimiz Təbrizin azad gələcəyi üçün xalqın ümidini, əzmini öz harayları ilə gələcək nəsillərə ötürürdülər. Balaş Azəroğlu belə əhatədə, doğmalar arasında güvəndə yaşasa da, yazılarında fikri dolandırıb həsrətlilərə nisgilli ismarıclarını yönləndirdiyini aydın görürük. Bu bir çox şairlərimizin şeirlərində ümid işığına bürünmüş ağrılardır. 1958-ci ildə Mirvarid Dilbazi yazdığı "Sinəm üstə" şeirində söylədiyi kövrək ninni ilə vətənin bütövlüyü, xalqın ayrılmazlığı, doğmalarına sədaqət, əminlik zəminində Araza (Balaş Azəroğlunun oğluna) dediyi bir azəri anasının laylası ilə bu millətin ruhunu övladlarının qan yaddaşına necə hopdurduğunu, ötürdüyünü görmək olur:

*Təbrizimin oğlu, sənin*
*Bir elin var, bir vətənin...*
*Qoy başını sinəm üstə*
*Kipriyini yum ahəstə.*
*Layla çalım, Arazım, yat!*
*Bir dalğalı sudur həyat!*
*Bu sahildən o sahilə*
*Sən əbədi bir körpü at!* [6, s.89]

"Ruh ancaq sənətdə, mənəvi mədəniyyətdə gözə görünür, yaşayır, əyaniləşir, sənədləşir! Etik genin, "mən"in ünvanı mədəniyyətdir. Və bu ünvandan keçmədən kökünə gəlib çatmaq, tapmaq, dərk etmək çətin ki, mümkün olar" [5, s.729]. Bu xalqın gen yaddaşına hakim "mən"ini səciyyələndirən kimliyi və dili ilə fəxarət hissidir ki, Balaş Azəroğlunun şeirlərində bunların toxunulmazlığı, müqəddəsliyi naminə yaşanan insani duyğuların möhtəşəmliyi şairin azərbaycançılığının göstəricisidir:

*"Milləti-qəyyur..." – deyə*
*Kürəyinə əl vurub*
*Dilini kəsirlər bu millətin.*
*Görək kim qanıyla bahasını verəcək*
*Bu cinayətin !...*
*...Ana dili qadağan olmuş Azərbaycanda.*
*Bir həddinə baxın zülmün...*
*Səfəvilərin qanun yazdığı dilə*
*Kilid vurmuş cəlladın birisi.* [3, s.82-83]

"Elə oğul istəyir vətən" şeirindəndir bu misralar.

Təkcə XX əsrdə "üç dəfə şahla üz-üzə duran, üç dəfə hökumət quran, öldürən, ölən, ... azadlıq üçün torpağa düşən, fəqət ayaqlarda sürünməyən bir xalqın" dilini əlindən almaq, qadağan etmək bu millət üçün dözüləcək işgəncə deyil. Balaş Azəroğlunun şair ruhu bu "işgəncəyə" dözməli olub.

Şimalda da Azərbaycan türklərinin adını, dilini millətin adı ilə səsləndirmək yasaqlanır, dini-inanc yerləri dağıdılırdı, lakin dilinə, dininə, əxlaqi dəyərlərinə sadiq olan millətin kimliyini unutdurmağa, "manqurtlaşdırmağa" qara güclərin gücü yetmədi. Nə sürgünlər, nə qətllər, nə zindan əzabları bu xalqın ruhunu sındıra bildi. "Ruh Allahın əmanəti idi, təfəkkürü isə insan özü qazanmışdı. Ona görə də ruhun tarixi insanların, xalqların, millətlərin ilahi, təfəkkürün tarixi isə real-dünyəvi tarixidir. Bu həqiqət dünyanın qədim qövmü olan türkün törəninə də aiddir" [7, s.121]. Dilinə, dininə, mənliyinə sədaqət, kimliyi ilə fəxarət türkün gen yaddaşının toxunulmaz-

lığıdır. Bəlkə də, özünü dərk edəndən bu xalq özü ilə qürurlanıb, ona görə də döyüşkən, azad ruhlu kimliyə sahib olubdur. Bu qədim qövmün özləri haqda fikirləri çox maraqlıdır: "Biz cüssəli, iribədənli, uzun, gur saçlı, böyük qafalı, geniş omuzlu, geniş alınlı, qalın boyunlu, uzun qollu, qalın kəmikli, ən azı əkiz çocuq dünyaya gətirən nəsli ən təmiz, əsəbləri ən qüvvətli, kəmikləri ən mükəmməl kimsələrik" (ərəb dilinə tərcümə Əl Cahiz VIII-IX əsr) [1, s.27]. Bu nəsli ən təmiz qədim xalq öz kimliyini yaxşı bilib:

*Babamın babasının yadigarı,*
*Qara gözlü, şirin sözlü gözəllərin,*
*Qəhrəman oğulların diyarı,*
*Keçmişi əzəmətli,*
*Gələcəyi ümid dolu,*
*Bir əli yaraqda,*
*Bir əli torpaqda*
*Döyüşə-döyüşə yaşayan*
*həyatını, nemətini qoruyan,*
*iki gözüm mənim,*
*Təbrizim mənim.* [3, s.142]

"Babaların mirası", "keçmişi əzəmətli", "döyüşə-döyüşə yaşayan", "əli torpaqda", "həyatını, nemətini qoruyan", "gələcəyə ümid dolu", "qəhrəman oğulları, qara gözlü gözəlləri" və s. aydın bir təqdimatla Təbrizin adında simvollaşdırıb, onu dünyaya baxan iki gözü bilən şair Azəri türkünün mükəmməl obrazına işıq tutur. "Məşrutə niyyətli, azadlıq soraqlım, günəşim, gündüzüm mənim, Təbrizim mənim" – deyən Balaş Azəroğlunun azərbaycançılıq ideologiyasının əsasında vətənin azadlığı yolunda sarsılmaz iradəsi dayanır. "Türk-Azərbaycan ideologiyasının mayası məhz budur – Azad Ruh!" [7, s.35]

*Bir zaman Ərdəbildə Şeyx Səfi küçəsindən*
*qarışıq cərgələrlə*
*qocalı, cavanlı*
*hamımız bir əqidəli, bir inamlı*
*gedirdik Alaqapı meydanına,*
*babaların xütbə oxuduğu yerdə*
*vətənə sədaqətimizi,*
*babalara hörmətimizi,*
*kimliyimizi,*
*dəyanətimizi yad edək bir də,*
*Ana laylası kimi şirin,*
*vətən göyləri kimi dərin,*
*Xətainin şeir yazdığı dildə*
*getdik...* [3, s.181]

Şair inqilab dövrü, azadlıq uğrunda xalqın fəxarətli gedişini belə xatırlayır. Bu inamlı yürüşün qürurunu ömrünün sonunadək yaşayan Balaş Azəroğlunun azadlıq ruhunun mayasında xalqın əqidəsi, inamı, vətənə sadəqəti, babalara hörməti, Xətainin ana laylası kimi şirin dilinə bağlılığı dururdu. 1971-ci ildə yazdığı "Şeyx Səfi küçəsi" adlı bu şeirdə bir insan ömrünün dəyərini, mənasını müəyyənləşdirəcək informasiya tutumu, böyük bir xalqın azadlıq ruhunun əzəməti vardır. Şair coşmuş izdihamın önündə xitabət kürsüsündən imperiyaya meydan oxuyan azadlıq carçılarının sarsılmaz əzmini, gücünü görmüşdü, bu coşğunu yaşamışdı. Bizə "moğol qalığı" deyən fars alimlərinin "eynəyinə qısılıb" qulaq asdıqları o meydanda nə qədər cılızlaşdıqlarını, qorxduqlarını belə ifadə edir Balaş Azəroğlu:

*... O zaman biri qulağından yapışa*
*deyə: - Cənab,*
*bu vüsətdə,*
*bu lətafətdə,*
*bu əzəmətdə*
*qalıq olar?!* [3, s.181]

Bir küçə... bir xalqın tarixi, əsrlərə bərabər günlər, dolanan zamanlar, fəsillər, "bir küçə boyu" yaşanan ulu bir xalqın taleyi sığışıb bu şeirdə. Balaş Azəroğlunun şair ömründən keçib gedən bu küçədən onun fərəhli, ağrılı, ümidli, nisgili vətən boyda bir sevgisi işıqlanır. Bu sevgi işığında şair özü də Şeyx Səfi küçəsi kimi qaldı "keçmişinin şöhrətli, dünəninin əzəməti, bu gününün möhnətilə..." [3, s.182]

*Yenidən zindan yolu oldu*
*Şeyx Səfi küçəsi.*
*Natiqlər getdi bu küçədən*
*dili bağlı.*
*Fədailər getdi bu küçədən*
*qolu bağlı.*
*Alimlər getdi bu küçədən*
*qara zindana...* [3, s.182]

"Bir ömür yaşamağa nə var" şeirində Balaş Azəroğlu "neçə-neçə ömrün möhnət yükünü bir ömrün çiyninə" yığdığını, "min-min fədainin arzu yükünü, inam yükünü, nakam ömürlərin qalan gününü" öz ömrünə sığdırdığını bu təlatümlü həyatının mənası bilir. "Vətən məhəbbətim, vətən həsrətim, sevincim, əzabım, vüsalım, qəmim" olmasaydı yaşamağımın "mənimçün mənası olmazdı" – deyir şair [2, s.85].

"Kədərli, sevincli illər" şeirində Balaş Azəroğlu çəkdiklərini, yaşadıqlarını, hətta "dəryalardan dərin kədərini" "o mənim azadlıq sorağım, mübarizə yarağımdır" – deyə dəyərləndirir.

*Yarısı səngərdə,*
*Yarısı xitabət kürsüsündə*
*keçən ömrümün*
*qocalığı yox,*
*gəncliyi yox...* [3, s.148]

Şair keçdiyi həyat yolunun "bir gün də dincliyi yox" – deyir. "Dünənki səngərimdir bugünkü yazı masam" – həqiqəti onun mübarizəsinin, mücadiləsinin məqam, forma fərqliliyində davamıdır.

"Qibtə" adlı şeirində haqq yolundakı – müqəddəs amal uğrundakı ölümün özünə qibtəsi, şairin etirafı ululardan gələn kimlik vərəsəliyinin göstəricisidir:

*Mən haqdən zərrəyəm, haqq özü məndə,*
*Heç zaman ölməyir haqq yer üzündə -*
*deyə-deyə dar ağacına - ölməzliyə gedən*
*məğrur babamız Nəsimiyə*
*qibtə etmişəm.* [3, s.150]

Şairin uğrunda şərəfli ölümü seçdiyi həqqi – Vətənin azadlığı və bütövlüyüdür. Onun lirik "mən"inə hakim bir inam "heç zaman ölməyir həqq yer üzündə" məntiqinə söykənir və bu həqq qalibdir.

## Nəticə / *Conclusion*

Balaş Azəroğlu poeziyasında şairin azərbaycançılıq ideologiyasının əsasında da Vətənin bütövlüyü uğrunda mücadilədə bu xalqın mükəmməl kimliyi, sarsılmaz iradəsi dayanır.

Akademik İsa Həbibbəyli qeyd edir ki, ədəbiyyat və mədəniyyətimiz əsasında "möhtəşəm bir Azərbaycannamə yaratmaq mümkündür. Bu, müstəqil Azərbaycanda hər bir azərbaycanlının milli-mənəvi özünüdərk kitabına çevrilə bilər" [4, s.36]. Bu Azərbaycannamədə Balaş Azəroğlu yaradıcılığı, heç şübhəsiz, möhtərəm bir mövqe tutacaqdır.

## Ədəbiyyat / *References*


1. Ağasıoğlu Firudin. Doqquz bitik. Azərbaycan türklərinin islamaqədər tarixi. I bitik. Bakı: Ağrıdağ, 2014.
2. Azəroğlu Balaş. Dünənim, bu günüm, sabahım. Bakı: Gənclik, 1978.
3. Azəroğlu Balaş. Seçilmiş əsərləri. Bakı: Öndər nəşriyyat, 2004.
4. Həbibbəyli İsa. "Azərbaycançılıq anlayışının formalaşma prosesi". Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. Humanitar elmlər seriyası, 2006, №1.
5. Qarayev Yaşar. Seçilmiş əsərləri. 5 clddə, IV cild. Bakı: Elm, 2016.
6. XX əsr Azərbaycan poeziyası antologiyası. IV kitab. 1950-ci illərin poeziyası. Bakı: Elm, 2013.
7. Şəmsizadə Nizaməddin. Seçilmiş əsərləri. Üç cilddə, I cild. Bakı, 2008.


## Азербайджанство в лирике Балаша Азероглы


**Хиджран Насибова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: nasibova.hicran53@mail.ru



**Резюме.** В статье анализируется идеология азербайджанства в стихотворениях поэта Балаша Азероглы. Автор статьи, исследуя образцы лирических стихотворений, подчёркивает выражение гражданской позиции поэта,его верность своему народу, родному языку, родине. В стихотворениях Б.Азероглы отражается история Азербайджана, также его география, национальное самосознание народа, занимаемое место в истории человечества. Значительная часть стихотворений Б.Азероглы является призывом к борьбе за независимость. Поэт считал родной язык священным, несмотря на запрет, наложенный иранским режимом на азербайджанский язык, порою даже проявления неуважения и оскорбления в адрес народа Южного Азербайджана и его языка. В основе стихотворений поэта - вера в независимое будущее единого Азербайджана. Автор статьи указывает на образец, где поэт говорит о том, что Азербайджану нужны сыновья, способные разорвать цепи ударом меча Хатаи. Исследователь говорит о вере поэта в тюркских сыновей, которых он символизирует в образе города Тэбриз. В основе идеологии азербайджанства поэта - непоколебимая воля, проявляемая в борьбе за единство, свободу и независимость своей родины.



**Ключевые слова**: Балаш Азероглы, азербайджанство, родина, народ, свобода, вера